# Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan gömrük orqanlarının vəzifəli şəxslərinin və Dövlət Gömrük Komitəsi sisteminə işə götürülən digər işçilərin ştatsayı həddinin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli, 80 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan gömrük orqanlarının vəzifəli şəxslərinin və Dövlət Gömrük Komitəsi sisteminə işə götürülən digər işçilərin ştat sayının həddi təsdiq edilsin.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci bəndi ilə bağlı maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində Azərbaycan Respublikası gömrük orqanlarının saxlanılması üçün nəzərdə tutulmuş vəsait dairəsində həyata keçirilir.

3. «Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan gömrük orqanlarının vəzifəli şəxslərinin və Dövlət Gömrük Komitəsi sisteminə işə götürülən digər işçilərin ştat sayı həddinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 iyul tarixli, 421 nömrəli Sərəncamının 1-ci, 2-ci, 4-cü və 5-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 20 aprel 2011-ci il***

***№ 1454***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 aprel 2011-ci il, № 4, maddə 336 («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*